# QAZAX: PROBLEMLƏR HƏLLİNİ TAPIR

Doğma Azərbaycanımızın hər bir guşəsi-aranı, dağı, dənizi-gölü-çayı, şoranlı Muğanı-Mili, barlı-bəhərli, bağlı-bağatlı torpağı bizim üçün əzizdir, doğmadır.

Qazax mahalı isə təkcə qazaxlılar üçün deyil, bütün Azərbaycan üçün əziz bir diyardır. Ona görə ki, dünya yaranandan, bəşəriyyətin ən dəyərli töhfəsi kimi bəxş etdiyi insanlar öncə sirli mağaraları, çayı, suyu, əkin üçün yararlı münbit torpağı, zəngin heyvanat aləmi olan bu bölgədə məskən salmış, əsrlər ötdükcə belə, bu yurdu, bu torpağı tərk etməmişlər.

Sirli-soraqlı Avey mağaraları, insanların öz əlləri ilə tikib-qurduqları qalalar, sığınacaqlar bu yerlərin keçmişindən vərəq-vərəq söhbət açır. Hələ 1979-cu ildə Qazağa səfər edərkən ulu öndərimiz Heydər Əliyev uca dağlara, ormanlara, meşələrə, şır-şır axan çaylara tamaşa etdikdən sonra demişdi: - Əziz qazaxlılar, sizin ata və babalarınız olduqca səfalı, binli-bərəkətli bir yerdə yurd salıblar. Sizin isə borcunuz bu ulu yurdu, torpağı göz bəbəyi kimi qorumaq, sonrakı nəslə ərməğan etməkdən ibarət olmalıdır.

Bəli, bu torpaq, bu mahal dünya ədəbiyyatına Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Səməd Vurğun, Osman Sarıvəlli, Mehdi Hüseyn, Mirvarid Dilbazi, İsa Hüseynov, Hüseyn Arif, İsmayıl Şıxlı, Vidadi Babanlı, Nüsrət Kəsəmənli kimi şair və yazıçıları, rus artilleriyasının Allahı Əliağa Şıxlinskini, ilk hərbi təyyarəçi Fərrux bəy Qayıbovu və neçə-neçə görkəmli şəxsiyyətləri, alimləri, akademikləri bəxş etmişdir.

İstər Böyük Vətən Müharibəsi illərində, istərsə də Qarabağ müharibəsi dövründə qazaxlılar mərdlik nümunəsi göstərmişlər. Müseyib Allahverdiyev Sovet İttifaqı Qəhrəmanı adına, erməni quldurlarına qarşı qanlı döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi göstərmiş beş nəfər qazaxlı Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Erməni quldurlarına layiqli cavab verən qazaxlılar ümummilli lider Heydər Əliyev demiş, həm öz torpaqlarını mərdliklə qorumuş, həm də Azərbaycanı. Bu döyüşlərdə 283 nəfər şəhid verən və ermənilərlə 169 kilometr sərhəd zolağında yerləşən Qazağın vətənpərvər oğulları öz ana torpaqlarını göz bəbəyi kimi qoruyur, erməni quldurlarına layiqli cavab verirlər.

1988-ci ildən üzü bəri ən qaynar bölgələrdən olan Qazax sanki yenidən qurulur, aybaay, ilbəil öz mənzərəsini dəyişir. Gürcüstan və Ermənistanın qovşağında yerləşən Qazax rayonunda gedən tikinti-quruculuq, abadlıq işləri ilə tanış olmaq üçün qərb qapımız olan Sınıq Körpüdən tutmuş ucqar dağ kəndlərini qarış-qarış gəzmək çox şeydən xəbər verər. Elə bir kənd, elə bir yaşayış məntəqəsi tapılmaz ki, ora ayna kimi parıldayan rahat asfalt yollar uzanmasın, evlərdə qaz, işıq yanmasın.

Bütün bunların hamısı regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarında irəli sürülmüş vəzifələrin yerinə yetirilməsi ilə bağlıdır. Ölkə başçısı İlham Əliyev öz çıxışlarında, eləcə də bölgələrdə vətəndaşlarla görüşündə dönə-dönə qeyd etmişdir ki, Azərbaycanın hər bir guşəsi: - istər şəhər, rayon mərkəzi, istərsə də kənd və qəsəbə əsl mədəniyyət mərkəzinə çevrilməlidir. Zavod və fabriklərdə, kənd təsərrüfatında çalışan, fəaliyyət göstərən hər bir zəhmət adamı gərgin işdən sonra mənalı istirahət etməlidir, onun yaşadığı mənzil qazla-enerji ilə, su ilə və digər məsələlərlə tam təmin edilməlidir.

Sevindirici haldır ki, 110 illik şəhər statusuna malik Qazax şəhərində də tikinti-quruculuq-abadlıq işləri yüksək templə davam etdirilir. Ölkə başçısı cənab İlham Əliyevin müvafiq sərəncamı ilə Qazax şəhərində su-kanalizasiya sisteminin tikintisi də yüz minlik rayon ictimaiyyəti tərəfindən böyük sevinc və rəğbətlə qarşılanmışdır.



Ümumi smeta dəyəri 100 milyon manatdan çox olan bu möhtəşəm layihənin inşası “Akkord Sənaye-Tikinti İnvestisiya Kooperasiyası” ASC-nin hidrotexniki qurğular departamentinə həvalə olunmuşdur. Bu ilin fevral ayından başlayan iş olduqca keyfiyyətlə və sürətlə aparılır. Layihə irimiqyaslı və möhtəşəmdir.

Bir anlıq şəhərin yerləşdiyi ərazini göz önünə gətirsək, işlərin necə də ağır, çətin, həm də şərəfli olduğu aydın olar. Şəhərin o başından-bu başına uzunluğu 9 kilometr, eni isə 5 kilometrdir. Şəhər və Ağköynək kəndi də daxil olmaqla 5.580 abonentə kanalizasiya və su çıxışı xidməti göstəriləcəkdir. Bununla yanaşı, 600 fiziki obyektin, o cümlədən məktəb, uşaq bağçası, idarə və inzibati binaların su və kanalizasiya xətləri yenisi ilə əvəz ediləcəkdir. Bu kanalizasiya xətlərinin uzunluğu 86 kilometr 658 metr, su xətlərinin uzunluğu isə 106 kilometr 332 metr olacaqdır.

Dediyimiz kimi, şəhərin mərkəzində və ucqar məhəllələrində olduqca sürətli iş gedir. İşçi qüvvəsinin istifadəsinə ən müasir ağır texnika və nəqliyyat vasitələri verilmişdir. Bu texnika vasitəsi ilə asfalt örtüklər səliqə ilə kəsilir, adamların və nəqliyyatın gediş-gəlişinə mane olmadan qazıntı işləri aparılır, kanalizasiya və su kəmərləri üçün borular düzülür, bu iş tamamlanan kimi qazıntı sahəsi örtülür, işlər bir-birini tamamlayaraq həyata keçirilir. Maraqlıdır ki, əvvəllər borular və digər avadanlıqlar xaricdən gətirilirdisə, son illər beton rezin borular yerli müəssisələrdən alınır. Bu da öz növbəsində işlərin xeyli ucuz başa gəlməsinə səbəb olmuşdur.

Bu möhtəşəm layihədə nəzərdə tutulan ən problemli məsələ şəhərin və ətraf kəndlərin içməli su ilə təchiz edilməsidir. Bu barədə “Akkord” ASC-nin Hidrotexniki qurğular departamentinin məsul işçisi, layihə rəhbəri Sədi Namazov açıqlama verərək bildirdi ki, Ağstafaçay qovşağında Molla Cəfərli, Xılxına və Qarahəsənli kəndləri yaxınlığında əla keyfiyyətli içməli su yataqları mövcuddur. Həmin ərazidə 12 ədəd subartezian quyusu qazılaraq 20 kilometr məsafədəki yüksəklikdə inşa olunan anbarlara su vurulacaqdır. Ümumi tutumu 10 min kubmetr olan həmin anbarlardan isə şəhərə öz axını ilə bütün sutka ərzində su veriləcəkdir. Şəhərin kanalizasiya və su şəbəkələri bir yerdə cəmləşərək qurğular vasitəsilə təmizlənəcək, çirkli sular bir yana, zibil isə digər yana axıdılacaqdır.

Layihəyə əsasən iş o qədər sürət və keyfiyyətlə aparılır ki, artıq 50-60 faizə yaxın tamamlama işləri başa çatdırılmışdır. Əsas məqsəd obyekti 2020-ci ilin sonunadək başa çatdırmaqdır.

Qazaxda son illər istifadəyə verilmiş Sement Zavodunun yanında “Mətanət” tikinti materialı istehsal edən zavod da artıq öz məhsulunu bazara çıxarmışdır. Rayon mərkəzi xəstəxanasının istifadəyə verilməsi isə 100 minlik rayon ictimaiyyətinin böyük sevincinə səbəb olmuşdur. Son üç ildə Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun təşəbbüsü və rəhbərliyi ilə 15 kəndə içməli su kəməri çəkilmiş, bütün istiqamətlərdə yerləşən yaşayış məntəqələrinə uzanan yollar asfaltlanmışdır. 20 körpələr evi-uşaq bağçası tam əsaslı təmir edilmiş, 5 yeni uşaq bağçası tikilib körpə fidanların istifadəsinə verilmişdir.

Bütün bunlar hələ görülən və həyata keçirilən işlərin yalnız bir qismidir. Qarşıdakı illərdə yeni məktəb, uşaq bağçalarının və digər mühüm mədəniyyət mərkəzlərinin tikintisi artıq layihələşdirilmişdir.

Hər şey göz önündədir. Kimin yolu şairlər vətəni Qazağa düşsə, bu yeniliklərin tam şahidi olar. Buyurun, qərb qapısının darvazaları üzünüzə açıqdır.

**Səhrəd MƏMMƏDOV,**
**Əməkdar jurnalist.**
**Qazax.**

Respublika.-2019.-10 dekabr.- S.6.